**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**
*№1 Sosial-siyasi elmlər seriyası 2005*

# AVROPA MÜƏLLİFLƏRİ XVII ƏSR SƏFƏVİ DÖVLƏTİNİN YERLİ İDARƏ SİSTEMİ HAQQINDA

**Z.M.HƏSƏNALIYEV**

*XVII əsrdə Səfəvilər dövləti inzibati cəhətdən vilayətlərə və əyalətlərə bölünmüşdü. Bu əyalətlərin başında «bəylərbəyi»lər (daha dəqiq «bəylərbəyi») dururdu (1.s.241-242). «Təzkirət əl mülkə» əsasən bəylərbəyilərin idarə etdikləri vilayətlərin sayı on üc idi: Şirvan, Qarabağ, və Gəncə, Azərbaycan (indiki Cənubi Azərbaycan), Çuxursəəd, Qəzvin, Qələmrov-i Ali-Şəkər (Həmədan), Guh Giluyə (fars) Kerman, Astabad, Məşhəd-i Müqəddəs-i Müəlla, Herat, Mərv-i Şihacahan, Qəndəhar (2).*

XVII əsrdə Azərbaycanda dörd bəylərbəyi Təbriz, Çuxursəəd, Qarabağ və Şirvan var idi (2). Təbriz bəylərbəyinə Lənkəran, Astara, Varkexan, Sərab, Meşkin, Marağa, Muğan, Urmiya, Xoy, Salmas, Lahican daxil idi (3, s. 421). XVII əsrin 70-ci illərində burada olmuş Şarden yazırdı: «Təbriz vilayətinin hakimliyi - Səfəvilər dövlətində şərəfli vəzifə sayılır, ordunun baş komandan vəzifəsinə həmin adam etibar edilirdi» (3, s. 421).

Çuxursəəd bəylərbəyliynə Naxcıvan, Moxu, Paşak aid idi. Qarabağ bəylərbəyliyi mərkəzi Gəncə olmaqla Kür-Araz arasında olan Arran, Bərdə, Ağstabad (Ağstafa), Bərgüşad, Arazbar, Cavanşir daxil idi, mərkəzi Şamaxı olmaqla Şirvan bəylərbəyliyini Salyan, Bakı, Quba, Qalxan, Dərbənd, Şəki, Ərəş, Ampout, Ağdaş torpaqları təşkil edirdi (4, s. 87-89).

Yalnız Ərdəbil Səfəvilərin müqəddəs evi kimi Azərbaycan bəylərbəyliyinə tabe deyildi, ora hakimlər XVII əsrdə birbaşa İsfahan sarayın-dan təyin olunurdu.

V.Minorski güman edir ki, bəylərbəyi istilahı I Şah Abbas dövrundə meydana gəlmişdir. Onun fıkrincə, həmin vaxta qədər Səfəvilər dövlətini hakimlər idarə etmişlər (5, s. 148). Həm da bu zaman o, «Tarix-i aləm apaj-i Abbasi»yə əsaslanmışdır. Cunki burada hökmdarların adları sadəcə olaraq hakimlər kimi cəkilir. Alessandri isə göstərir ki, I Şah Təhmasibin dövründə dövlət sultanların idarəsi altında olan 50 hissəyə bölünmüşdü.

Bununla belə, İ.P.Petruşevski qeyd edir ki, bəylərbəyilər I Şah Abbasdan xeyli əvvəl mövcud olmuşlar (6, s.118). K.Rohrborn da bu fikirdədir. Bəylərbəyilər inzibati və hərbi hakimyyəti öz əllərində birləşdirmiş yerli feodal yığma qoşununa (cərik qoşun) başcılıq etmişlər. Əyalətlər dövlət vilyətləri idi və daha cox sərhəd ərazilərini əhatə edirdi. Buna görə də bu vilayətlərdə inzibati hakimiyyət hərbi səciyyə daşıyırdı, bəylərbəyi istilahı «əmir əl-umərə» istilahına muvafiqdir. Nəzərdən kecirdiyimiz dövrun

mənbələrində vilayət hakimi kimi bəylərbəyi istilahı əvəzinə tez-tez onun sinonimi olan əmir əl-uməra istilahı işlədilir. Bu isə bizi yanlış fikrə gətirib cıxarmamalıdır. İlk Səfəvilər dövründə əmir əl-umərаların yaxud bəylərbəyilərin təyin olunması Azərbaycan tayfa əyanlarının müstəsna imtiyazı idi. Bəylərbəyilər qızılbaş feodal əyanların, yaxud şahzadələrin sırasından təyin olunurdu. Onların hər birinin əslində şah sarayına bənzəyən imarəti olmuşdur. Vilayət inzibati idarə sistemi bir cox cəhətdən mərkəzlə oxşar səciyədə idi.

Qüdrətli qızılbaş əyanlarının nümayəndələri bəylərbəyi əmir-əl-umərа və hakim sifətilə vilayatləri irsi olaraq idarə edirdilər. Məsələn, Qarabağ və Astrabadı qacar tayfasından olan iki nəslin əmirləri idara edirdi; Şirvan - ustaclı tayfası, Azərbaycan (cənub həssəsi) təkəli və türkman tayfaları; Cuxursəəd ustacı tayfası, Fars zulqədər tayfası; Kerman əfşar tayfası; Herat şamlı tayfası və b. tərəfindən idarə olunurdu.

Bəylərbəyilər (yaxud əmir əl-ümərа) daxili işlərində əməli olaraq mərkəzi hakimiyyətdən mustəqil idilər. Onlar tabeliyində olan əhalidən məmurları vasitəsilə toplamış olduqları müəyyən miqdarda vergini şaha verir, öz həmtayfalarından ibarət olan silahlı quvvə saxlayır və şahın əmri ilə hərbi yürüşlərdə, yaxud, xalq üsyanlarının yatırılmasında iştirak edirdilər. Vilayət hakimlərindən bəziləri o qədər qudrətli idilər ki, hətta öz saraylarının zənginliyi və cəlalına görə şahla rəqabət aparırdılar.

Nümunə ücün ustaclı tayfa başcısı olan Abdulla xanı yada salaq. O, hicri 956 (1549-1550)-cı ildə Şirvan bəylərbəyi vəzifəsinə təyin olımmuş və 974 (1566-1567)-ci ildə vəfat edənədək, 17 il ərzində həmin vəzifəni tutmuşdu. O, Şirvan əyanlarının separatcı cıxışlarını (Qurba Əlinin, Mehrabın, Qasım Mirzənin) yatırmağa nail oldu və burada Səfəvilərin hakimiyyətini möhkəmləndirdi. Bundan sonra Abdulla xanın nüfuzu daha da artdı. I Şah Təhmasib həm də bibisi oğlu olan Abdulla xanla cox vaxt hesablaşırdı. Çenkinsonun öz qeydlərində Şirvan canişini Abdulla xanın sarayının şahanə təmtərağının təsvirinə böyük yer verməsi, onu sərh edərək «Şirvan kralı» adlandırması təsadüfi deyildi.

İndi də bəylərbəyiyə tabe olan vilayət miqyaslı burokratik aparatın bəzi vəzifələrini nəzərdən kecirək. Bu zaman qeyd etmək lazımdır ki mənbələrdə təbii olaraq mərkəzlə muqayisədə əyalət idarələrinə az diqqət yetirilmişdir.

Artıq qeyd etmişik ki, Səfəvilər bir cox cəhətdən öz sələflərinin inzibati quruluşunu əxz etmişdilər. Bu, vilayət vəziri vəzifəsinə də aid idi. Biz bəylərbəyiliklərdə belə vəzirlərin olmasına dair coxlu dəlillər göstərə bilərik. Məsələn, Hicri 916 (15l0)-cu ildə Mərv yaxınlığında özbəklər üzərində qələbədən və Xorasanı tutduqdan sonra I Şah Ismayıl yenicə istila olunmuş vilayətdə idarəcilik aparatının təşkilinə böyük əhəmiyyət vermişdi. O vaxta qədər Şeybani xanın divan müşrifi olmuş Xacə Kamələddin Mahmud Səfəvilərə xidmət etməyə kecdi. O, vəzir və divan sahibi vəzifəsinə təyin olundu. Hicri 937 (1530-153l)-ci ildə Herat bəylərbəyi Hüseyn xan Şamlı tərkibinə öz vəziri Əbməd bəy Nur Kamal Isfahaninin, vəkili Hüseyn bəyin, Xacə Səndi və Ağa Kamal Kermaninin, Əhməd Soltanın (görünür ki,

Kerman bəylərbəyi Əhməd Soltan Sufı oğlu, Ustaclı) vəzirlərinin daxil olduğu numayəndə heyətini saraya göndərdi. Hicri 940 (1533-1534)-cu ildə Azərbaycan hakimi (əmir al umərası), Musa Soltan işləri qaydaya salmağa və vəziri Xacə Şahquluya həvalə etdi. Şeyx Məcid Kerman hicri 941 (1534-1535)-ci ildə Osmanlı basqını zamanı şəhəri tərk etmiş Bağdad hakimi Məhəmməd xan Təkəlinin vəziri idi.

İskəndər bəy Munşi qeyd edir ki, vilayətlərin daha görkəmli vəzirləri (məmalik-i mahrusə) sırasında bütün Azərbaycan və Şirvanın vəziri (və nümayəndəsi) olmuş Mirzə Ətaulla İsfahani və bütün Xorasanın vəziri (və nümayəzi) Ağa Kəmaləddin Zeynal-Kermanidə var idi.

Budaq Qəzvini göstərir ki, Hicri 967 (1559-1560)-cı ildə yuxarıda adı cəkilən Mirzə Ətaulla bütün Azərbaycanın, Şirvanın, Şəkinin və Gürcustanın (Gürcü) vəziri idi. Buradaca göstərilmişdir kı, Qəzvin vəziri Ağa Molla Sultan Suleymanın oğlu Bəyazidin yanına elçi göndərmişdir. Sonra İskəndər bəy Münşi qeyd edir ki, kecmişdə Həsən bəy yuzbaşı Ustaclının vəziri olmuş Xacə Qasım Əli Azərbaycan vəziri vəzifəsinə layiq görülmüşdür. Onun qardaşı Xacə İnayət Türkə onun yerinə Həsən bəyin vəziri olmuşdu. Onların hər ikisi Təbrizdən idi və I Şah Təhmasibin sarayında hörmətli adamlar sayılırdılar.

Xacə Məhəmməd Şərif Tehrani Yəzd vəzirliyindən azad edilərək İsfahanın vəziri olmuşdu. Mirzə Badi əl-zaman Ağa Talay Dəvətdar Qəzvini oğlu Kaşan vəziri idi. Onun qardaşlarından biri Əhməd bəy Xorasanın bir sıra mahallarının vəziri olmuşdu. Mirzə Əbdulbadi Mir Fəzlullah Şəhristani oğlu Qəzvin vəziri olmuşdu. Mir Seyid Əli Rezavi Quminin vəfatından sonra onun vəzifəsini tutmuşdu.

Bizə vilayət vəzirlərinin mərkəzi inzibati idarəyə vəzir vəzifəsinə irəli cəkilməsinə dair bir cox dəlillər məlumdur. Məsələn, Caldıran vuruşmasından sonra divan vəziri vəzifəsinə gəlmiş Mirzə Şah İsfəhani o vaxtadək İsfahan hakimi olan Durmuş xan Şamlının vəziri idi. I Şah Təhmasibin vəziri Mir Cəfər Savəci kecmişdə Bağdadda Zeynəddin Soltan Şamlının vəziri olmuşdu. Yuxarıda adı cəkilən Əhməd bəy Nur Kamal İsfahani da həmçinin «yüksək divan vəziri» təyin edilmişdi. Buna bənzər numunələrin sayını artırmaq da olar.

Mənbələrdə vilayət qurçibaşılarının adları cəkilməsə də, vilayətlərdə qurçibaşıların mövcudluğu şubhə doğurmur. Məsələn, hicri 984 (1576-1577)-ci ildə Huseynqulu Xülafə Rumlu II Şah İsmayıın qəzəbinə dücar olaraq, rumlu tayfasının başcısı vəzifəsindən kənar olunmuş və Məşhəd qurçilərinin qurçibaşısı təyin edilmişdi.

Hicri 974 (1566-1567)-ci ildə Səfəvilər, xeyli cətinliklərdən sonra, nəhayət, Gilanı ələ kecirdilər. Gilan hakimi Xan Əhməd son nəticədə İmamqulu Mirzənin qurçibaşı olmuş əmir Hüseyn bəy Qaramanlı (bəyin oğlu) tərəfindən izlənərək tutuldu. Mənbədə 1538-ci ildə Şirvandan I Şah Təhmasibin sarayına gəlmiş və Şirvanın istilası zamanı qızılbaş qoşununu müşayiət etmiş qurçibaşı Padarın adı cəkilir. Lakin onun həqiqətən kim olduğunu muəyyən etmək cətindir.

Sədr - Səfəvilərin Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindən irsən

mənimsədikləri əyalət bürokratiyası vəzifələrindən biri Qiyasəddin Məhəmməd bin əmir Yusifi vilayət sədrini nümunə olaraq göstərmək olar. Şah İsmayıl hicri 916 (1510)-cı ildə Xorasanı tutduqdan sonra əmir Qiyasəddini «şəriətin bütün işlərində vahid və müstəqil hakimiyyətlə» Xorasana qazi təyin etdi. Hicri 922 (1516)-cı ildə Təhmasib Mirzə Xorasan hakimi təyin edilərək ora göndəriləndə onun lələsi olan Əmir soltan (Əmir xan Tükman) əməli hakimi oldu. Əmir Qiyasəddin isə şahzadəyə sədr təyin edildi.

Yuxarıda qeyd etdiklərimiz dövlət, divan vilayətlərinə də aiddir. Bununla belə, torpaqların böyük sahəsi Səfəvi şahlarının xassəsinə daxil idi və mülki inzibati hakimiyyətə malik idi. Xassə torpaqları şahın təyin etdiyi, həmçinin xidmətçilər ştatına malik olan məmurlar, vəzirlər tərəfindən idarə olunurdu. Ərdəbil mahalı Səfəvilər sülaləsinin xassəsi idi. İskəndər bəy Münşi məlumat verir ki, İsfahan vilayətində torpaq yerlərinin və mülklərinin əksəriyyəti Şah Təhmasibə məxsus idi və taxt-tacın varisi Həmzə Mirzənin xassəsi sayılırdı. Həmzə Mirzə xassəsinin idarə etməyi (darğaki) şahın arvadı Mehdi Ulyanın qardaşı oğlu Mir Hüseyn Xan Mazandaraniyə tapşırmışdı.

Şarden İrəvan bəylərbəyisi Səfiqulu xan haqqında geniş məlumat verir. O yazır: «İrəvan hakimi bəylərbəyidir. Əyalət hakimlərinə bəylərbəyi deyilir. Onlar digər məsul şəxsiyyət və ikinci dərəcəli hakim olan xanlardan fərqlənirlər. İravan hakimi həm də sərdar titulu daşıyır. Yəni qoşunun komandiri hesab olunurdu. İrəvan əyalətinin hakimi İranın birinci dərəcəli hakimi, əyanı, cox bəsitrəlı və ölkənin tam bir diplomatı sayılır. Bu şəxsiyyətin adı Səfiqulu xandır. Həmişə mərhum şahənşahı hakimiyyəti dövründə (II Şah Abbas nəzərdə tutulur - H.Z.) İran imperiyasının ən nıühüm əyalətlərindən birinin hakimi olmuşdur. Lakin saray qadınları, intriqası nəticəsində məşhur padşahın vəfatından üc il əvvəl, işindən azad edilmişdi. İran hakiminin arvadı şahzadə xanım ona tərəfdar səltənət nəslinə mənsub idi. Bu şahzadə xanım indiki şah Süleyman hakimiyyətinin ilk ilində elə iş gördü ki, şah onun ərinə cox mərhəmət etdi. Az sonra o, ölkənin ən gəlirli, ən mühüm əyaləti hesab olunan İrəvana hakim təyin edildi. Bu əyalətin hər il 32 min tümən gəliri vardır. Bu da təqribən 500 min eku (qədim qızıl sikkə) edirdi. Bundan əlavə cərimə qəramət, hədiyyələr və s. 200 min eku hakimə nəsib olurdu. İndi İrəvan hakimi bütün Iranın ən varlı və dövlətli şəxsiyyəti hesab olunur. Bu şəxsiyyətə şahənşah yüksək dərəcədə hörmət edir. Onun iki övladı şahın cox yaxın adamı hesab olunur..»(3).

Səyyah, şah qulamları, çaparxanalar, Novruz bayramı haqqında da maraqlı məlumatlar vermişdir. Şardenin yazdığına görə «şahın qulamları» dedikdə bu o demək deyildir ki, onlar ölkənin digər vətəndaşları kimi bəndə, nökər, hər bir azadlıqdan məhrum olan adama deyildirlər. «Bu« dəstə şahlığa kamil xidmət və etimad nəticəsində belə bir ad almağa layiq görülmüşdür (3).

Şarden qeyd edir ki, İran şah sarayının qulamları bu ölkənin imperatorluq dəstgahında eynilə Avropada Fransa sarayına əsilzadə və cinovniklərin sahib olduqları vəzifələrə malikdirlər. Bu təbəqənin əksər adamları

Şərif və Nəcib uşaqlardır ki, gənclik cağlarında maddi mənafe əldə edib, tərəqqi etmək ücün saray dəstgahında xidmət etməyə daxil olurlar. Əyan və əşrafın bir hissəsi 5 yaşından öz uşaqlarını saray xidmətinə qoyurlar. Şahənşah bu uşaqların hər birinin ailə mənsubiyyətinə və şahlığa etdikləri xidmətləri nəzərə alaraq onlara məvacib verir. Bu məvacib onların valideynlərinə verilən mükafat qismindədir. Bunlardan hər dəstənin illik məvacibi 20 tüməndir. Onların yeməkləri sarayın öhdəsindədir. 20 tümən 900 qızıl franka bərabərdir. Əgər onlara verilən pulsuz yeməkləri də nəğd pulla hesablasaq, 500 frank olar. Adətən uşaqların yaşı coxaldıqca, onların etdikləri xidmətin keyfiyyəti və ya şahın onlara mərhəmətləri nəzərə alaraq məvacibləri də artır..(3).

Şahın qulamları cox ciddiyyət və səylə şah sarayında xidmət etməklə məşğuldurlar. Mühüm fərmanların icrası onların öhdəsindədir. Şahın hakimlərə fərman və ya hədiyyələri həmin dəstə vasitəsilə aparılıb təhvil verilir. Onlar həm də hərbi və mülki işlərdə mühüm vəzifələrə təyin olunurdu.

Şah fərmanlarını sürətlə yerlərə catdırmaq ücün çaparlar vasitəsilə göndərirdı. Çapar sözünün kökü türkcə «çapacaq» mənası isə «sürətlə gedən» deməkdir.

Çaparlar cox sürətlə yol gedirlər. Baxmayaraq ki, həmişə lazım olan minik heyvanları onlara verilmir, lakin çox sürətlə vəzifələrini yerinə yetirirlər. Şərqin heç bir ölkəsində qaydalı bir poçta dəstgahı yoxdur. Iran şahı və hakimlərin çaparları hər bir yerdə özləri üçün minik heyvanı tapdıqda onu zor ilə sahibindən alıb, minib yolunu davam etdirir. Onların icazəsi vardır ki, uzaq məsafələrdə süvariləri atdan yendirib, özləri həmən minik heyvanından istifadə etsinlər. Yerli hakimlər də çaparların ixtiyarına minik heyvanı verməyə borcludurlar. Əlbəttə, bu çox pis qaydadır. Onların tələbləri qarşısında müqavimət gostərə bilməyən zəif və aşağı təbəqəyə məxsus şəxslər çaparlara pul verməyə məcbur olurlar, yoxsa, öz atlarından düşüb, piyada, atlarının arxasınca qacmağa məcbur olacaqlar.

Çaparxana işciləri böyük və hörmətli şəxsiyyətlərə, Şah məmurlarına və şah sarayına gedən əcnəbilərə zor işlətməyə cürətləri çatmır. Həmişə belə hərəkətin nə kimi təhlükəli nəticələr verəcəyi barədə düşünürlər. Çaparlar, adətən istifadə edəcəkləri minik heyvanları kecdiyi yolların kənarında yerləşmiş bəndlərdən əldə edirlər. Belə halda onlar həmən əldə etdikiəri minik heyvanlarından yalnız bir mənzil yol getməyə ixtiyarları vardır. Çaparın arxasınca həmişə bir nökər gedir ki, mindiyi atı geri qaytarsın...(3)

Çaparxana işcilərı özlərinin yol vəsaiti ilə təchiz olunmalarından çox razıdır. Onların kiçik xurcunları vardır ki, atın yəhərinə bağlayır. Hər bir çaparın xəncəri, qılıncı və torbası vardır. Əlində uzun ağac olur. Arxasında bir yay vardır. Böyük şalı iki dəfə boynuna sarıyıb, xac şəklində arxa və sinəsinə bürüyüb, belindən ucunu cıxarırdı. Çaparın yoldan keçən atını zorla alacağından qorxaraq, adamlar qaçıb gizlənir, ya ona pul rüşvət verməyə hazırlaşır, ya da düşüb, atını çapara təhvil verməli idi. Adətən çaparlar yola iki-iki cıxırlar. Lakln çaparlar şahın fərmanını apardıqda onlarin əlindən qopmaq cox cətin işdir. Cünki onlarla razılığa gəlmək müşküldür. Cünki belə çaparın qarşısında müqavimət göstərən adamı, o, qılınc və ağacla

qarşısındakına xəsarət yetirə bilərdi. Əlbəttə, məzlum və adi adamlar zorakılığa əl ata bilməz» (3, s. 316-317).

Fardenin yazdığına görə şah öz fərmanını qulamlarından biri və yüksək rütbəli şəxsiyyətlərin vasitasilə gondərdikdə fərmanı alan ona qiymətli xələt və ya hədiyyə verməli idi. Həmn fərmanı gətirmiş şəxs geri qayıdarkən tutduğu mövqeyinə görə münasb hədiyyə almalı idi. Şarden yazır: Misal üçün şahın fərmanını gətirən qulamın İrəvana daxil olması üçün həmin vilayət hakiminə 400 tümənə başa glirdi ki, bu da Fransa pulu ilə 18 min lirəyə bərabər idi. Bu məsrəf həmin şah qulamının mənzil, yemək pulu məxaricindən əlavə idi. Çox vaxt şah fərmanını aparan qulama veriləsi hədiyyənin miqdarını özü təyin edirdi. Ona görə də fərman müqabil tərəfə çatdıqda, tərəf həmin məbləği şahın fərmanını gətirən şəxsə ödəməli idi. Belə hallarda fərmanı gətirmiş adımın şah sarayında tutduğu mövqeyi, şəxsiyyəti və hansı ailəyə mənsub olması nəzərə alınır. Xüsusilə, fərmanı gətirmiş şəxs və onun valideynləri şahın yaxın adamı olmuş olsa, ona daha artıq hörmət edirlər, və bu yol ilə fərmanı almış şəxs özünün şaha nə dərəcədə sadəqətli olduğunu çatdırırdı (3).

## ƏDƏBİYYAT


1. Əfəndiyev O.A. Azarbaycan Səfəvilər dövləti. Bakı, Azərnəşr, 1993, 299s.
2. Təzkirət əl-mülük. Məhəmməd dəbir-Səyaqinin nəşri. Tehran, 1344 şəmsi (1965), (fars dilində)
3. Şarden J. Səyahətname-ye Şarden. Məhəmməd Abbasın fransız dilindən fars dilinə tərcüməsi, Tehran, 1336 şəmsi (1957), I-IV cildlər. (fars dilində).
4. Рахмани. А.А. Азербайджан в конце XVI в и XVII веке. Баку, ЭЛМ, 1981. 238с.
5. Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı: Gənclik, 1985, 184s.
6. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIXвв. Ленинград: ЛГУ, 1949, 382с.


## ЕВРОПЕЙСКИЕ УЧЕНЫЕ О СИСТЕМЕ МЕСТНОГО УПРАВЛЕНИЯ СЕФЕВИДСКОГО ГОСУДАРСТВА XVII ВЕКА

**З.ГАСАНАЛИЕВ**

### АННОТАЦИЯ


В статье анализируется и классицируется система управления провинций Сефевидского государства XVII века. Отмечается, что Сефевиды прилагали все усилия по укреплению центральной власти, хотя провинциальные правители обладали большими полномочиями.

Рассматривается точка зрения различных авторов, путешественников того времени на роль правителей областей, что представляет особый научный интерес.